# Azərbaycan Fransanın neoimperial siyasətini iflasa uğradır



**"Fransanın ölkəmizdəki səfirini geri çağırması regionda yeni gərginlik yaratmaq və Azərbaycanı qeyri-sabit ölkə kimi təqdim etmək niyyəti güdür. Azərbaycanın 44 günlük Vətən müharibəsində və 23 saatlıq antiterror tədbirlərində qazandığı parlaq qələbələri həzm edə bilməyən Fransanın ölkəmizə qarşı qərəzli və ədalətsiz münasibəti ortadadır. Əslində, Yeni Kaledoniya adasını və digər bir sıra regionu öz müstəmləkəsinə çevirərək yerli xalqlara qarşı imperialist siyasət yürüdən Fransanın işğalçı Ermənistanı dəstəkləməsi təəccüblü deyil".**

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Fazil Mustafa deyib. Deputat bildirib ki, Fransa öz maraqlarını təmin etmək üçün Ermənistandan sui-istifadə edir: "Bu ölkə bir çox çirkin niyyətini həyata keçirməkdən ötrü Azərbaycanla bağlı təxribatçı addımlar atır və absurd davranış sərgiləyir. Azərbaycanın Fransanın hədələri ilə geri çəkiləcəyini düşünərək, belə demək mümkündürsə, sadəlövhlük nümayiş etdirir. Bir daha aydın olur ki, bu ölkə Azərbaycanla bağlı siyasətində İran fundamentalistləri ilə birlikdə çıxış edir. Bu iki ölkə zehniyyətcə eyni davranışı sərgiləyirlər. Azərbaycanın hədəflərinə doğru qətiyyətlə addımladığını görüb bunu  həzm edə bilməyən Fransa və İran Ermənistanın əsas dəstəkçiləridirlər".

Fazil Mustafa söyləyib ki, tarix boyu beynəlxalq hüququn norma və prinsiplərini pozmaqdan çəkinməyən Fransa bu gün də öz "ənənə"sinə sadiqdir: "İstər Yeni Kaledoniya xalqının müqəddəratının təyin edilməsi, istərsə də Azərbaycan-Ermənistan münasibətləri məsələlərində hüquq normalarını gözləmir. Bu ölkə Yeni Kaledoniya xalqının müstəqil olması ilə bağlı üzərinə götürdüyü öhdəliklərə əməl etmir, konstitusiyaya, seçki qanunvericiliyinə müdaxilədən çəkinmir. Azərbaycana qarşı münasibətdə isə yalan və iftira danışır, işğalçını silahlandırmaqla və revanşistləri qızışdırmaqla sülh prosesinə əngəl törədir".

Deputat vurğulayıb ki, məhz bu səbəblərə görə Azərbaycan tərəddüd etmədən ölkəmizə qarşı hazırlanan çirkin planların qarşısını almaq üçün daim sistemli və düşünülmüş addımlarını atacaq: "Heç bir təzyiq Azərbaycanı öz yolundan geri çəkilməyə sövq edə bilməz. Müxtəlif diplomatik-siyasi pərdələrlə imperialist mahiyyətini ört-basdır etməyə çalışan Fransanın casus xisləti davamlı olaraq ifşa ediləcək. Rəsmi Parisə digər regionlarda həyata keçirdiyi müstəmləkə siyasətini Cənubi Qafqazda reallaşdırmasına imkan verilməyəcək".

Fazil Mustafa yekunda dövlətimizin zəfərə hesablanan təşəbbüslərinin parlaq nəticə verəcəyini qeyd edib. Müsahibimiz həmçinin Azərbaycanın neoimperial siyasətə qarşı nümayiş etdirdiyi əzmkarlığın Fransa və Ermənistana gec, ya tez mütləq dərs olacağını vurğulayıb.

***N.QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 20 aprel, № 79.- S.8.